# Cəlil Məmmədquluzadənin yubileyi adını daşıdığı rayonda qeyd edilib

**İndiki Cəlilabad rayonu inzibati ərazi kimi 1930-cu ilin avqustunda təşkil edilib. 1967-ci ilədək Astarxanbazar adlanan rayonun adı 2 iyun 1967-ci ildə görkəmli yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin şərəfinə dəyişdirilib.**



Bu il isə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 155 illiyi tamam olur. Cəlilabad Rayon İcra Hakimiyyətinin və rayon təhsil sektorunun birgə təşkilatçılığı ilə keçirilən tədbir də bu münasibətlə idi.

Rayon icra hakimiyyəti aparatının əməkdaşlarının, təhsil sektorunun nümayəndələrinin, ziyalılar və məktəblilərin iştirak etdikləri tədbir ədibin abidəsini ziyarətlə başlayıb. Sonra dövlət himni səsləndirilib, xatirə şəkilləri çəkilib. Kazımabad kənd tam orta məktəbinin şagirdlərinin ifasında ədibin "Quzu" hekayəsinin səhnələşdirilmiş variantı təqdim olunduqdan sonra məktəblilər arasında şahmat yarışı keçirilib.

Sonda qaliblərə fəxri fərmanlar və medallar təqdim olunub.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 27 fevral, № 44.- S.11.